

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 70 (24.207)

*20 aprel 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev İsrailin xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Koheni qəbul edib.

Azərbaycan-İsrail münasibətlərini yüksək qiymətləndirən dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin mövcud olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin açılmasını əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirdi və bu əlaqələrin dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslandığını vurğuladı. Dövlətimizin başçısı əməkdaşlığımızın gündəliyinin genişləndiyini deyərək, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyətini xüsusi qeyd etdi, bunun əlaqələrin şaxələnməsi işinə töhfə verə biləcəyinə ümidvarlığını bildirdi.

Hazırda Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi prosesinin uğurla həyata keçirildiyini bildirən Prezident İlham Əliyev bu baxımdan texnologiyalar sahəsində, o cümlədən yaşıl enerji, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları ilə bağlı təcrübə mübadiləsinin önəmini qeyd etdi.



Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasında yaradılmış şərait barədə məlumat verdi, İsrail şirkətlərinin burada da fəaliyyət göstərmələri və yeni layihələrlə çıxış etmələri üçün yaxşı imkanların olduğunu dedi. Həmçinin SOCAR-ın İsraildə karbohidrogen resurslarının istismarında iştirakı imkanlarına baxılmasının da önəmi vurğulandı.

Azərbaycanın İsraildə səfirliyinin açılmasını yüksək qiymətləndirən və bunun ölkələrimiz arasında strateji əlaqələr qurulması işinə töhfə verəcəyinə ümidvarlığını bildirən İsrailin xarici işlər naziri səfirliyin açılmasına görə təşəkkürünü ifadə etdi, İsrail ilə Azərbaycan arasındakı əlaqələrin strateji xarakter daşıdığını vurğuladı. Qonaq dostluq münasibətlərimizin təkcə dövlətlərimiz arasında deyil, xalqlarımız arasında da mövcud olduğunu bildirdi.

Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etdiyini vurğulayan İsrailin xarici işlər naziri turizm sahəsində əlaqələrimizə toxunaraq ölkəsindən Azərbaycana gələn turistlərin sayının artmaqda olduğunu qeyd etdi. O, ölkələrimiz arasında ticarət dövriyyəsinin artım tempinin müşahidə olunduğunu deyərək, bunun daha da artırılması üçün geniş imkanların olduğunu bildirdi.

Görüşdə iqtisadiyyat, enerji, kənd təsərrüfatı, bərpa olunan enerji, investisiyalar, elm, təhsil, mədəniyyət, turizm, təhlükəsizlik sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulandı. Həmçinin su resurslarının idarə olunması və dəniz suyunun şirinləşdirilməsi, səhralaşma prosesinin qarşısının alınması, səhra və yarımsəhra şəraitində kənd təsərrüfatının inkişaf etdirilməsi sahələrində İsrailin təcrübəsinin Azərbaycan üçün maraqlı olduğu qeyd edildi.



## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erika Olsonu qəbul edib.

Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlarla bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı qeyd etdi ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistanla sülh müqaviləsinin imzalanması məhz Azərbaycanın təşəbbüsüdür və bu xüsusda sülh müqaviləsinin əsasını təşkil edəcək 5 prinsip ölkəmiz tərəfindən təklif olunub.

Erika Olson vurğuladı ki, ABŞ regional sülh gündəliyini və Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəkləyir. Bu əsnada ABŞ Dövlət katibi Antoni Blinkenin rolu xüsusi qeyd olundu.

Söhbət zamanı regional məsələlər, Azərbaycan ilə ABŞ arasında ikitərəfli siyasi əlaqələr, o cümlədən enerji, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Ağır atletika üzrə Avropa çempionu Nuray Güngörə

Əziz Nuray,

Ağır atletika üzrə Avropa çempionu adını qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirik.

İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında böyük qələbə əzmi ilə ölkənizi ləyaqətlə təmsil edərək möhtəşəm uğura imza atmağınız, Türkiyənin şanlı bayrağını yüksəklərə qaldırmağınız, Dövlət Himnini səsləndirməyiniz bizi çox sevindirdi və qürurlandırdı. Avropa birinciliyinin gərgin mübarizəsindən qalib çıxaraq medallarınızı Azərbaycana həsr etdiyiniz üçün də Sizə xüsusi təşəkkür edirik.

Sevincimizi və kədərimizi birgə paylaşdığımız qardaş Türkiyənin biz olmayan yerdə bizi təmsil etməsi bir millət, iki dövlət olmağımızı bir daha bütün dünyaya bariz şəkildə nümayiş etdirdi.

Biz Sizinlə fəxr edir, bundan sonra da yeni-yeni qələbələr diləyirik.

Hörmətlə,

**İlham Əliyev və Mehriban Əliyeva**

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Naxçıvanda *"KOB Dostları"* fəaliyyətə başlayıb

Naxçıvan Muxtar Respublikasının Naxçıvan, Culfa, Şahbuz şəhərlərində və Sədərək rayonunda "KOB Dostları" fəaliyyətə başlayacaq. "KOB Dostları" Naxçıvan Muxtar Respublikasında yeni KOB-ların yaranmasına və mövcud biznesin inkişafına, sahibkarların investisiya təşəbbüslərinin reallaşdırılmasına və maraqlarının müdafiəsinə dəstək göstərəcək. "KOB Dostu" ofisləri müvafiq şəhər və rayonlarla yanaşı, ətraf rayonların sahibkarlarına da xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikasında "KOB Dostları"nın fəaliyyətə başlaması ilə əlaqədar aprelin 19-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə sahibkarlarla görüş keçirilib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevin, KOBİA-nın



İdarə Heyətinin sədri Orxan Məmmədovun, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası İdarə Heyətinin sədri Vüqar Abbasovun iştirakı ilə keçirilmiş görüşdə müxtəlif sektorlarda fəaliyyət göstərən sahibkarlar da təmsil olunublar.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev Naxçıvanda iqtisadi sahədə mövcud vəziyyət, bölgənin iqtisadi potensialı, iqtisadi fəaliyyət sahələri üzrə həyata keçirilən tədbirlər və biznes mühiti barədə məlumat verib, "KOB Dostu"nun mikro, kiçik və orta biznes subyektlərinə dəstək olacağına əminliyini vurğulayıb.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov agentlik tərəfindən sahibkarlara göstərilən dəstək və xidmətlər, o cümlədən "KOB Dostu" mexanizmi barədə ətraflı məlumat verib. Qeyd olunub ki, hazırda ölkənin 39 şəhər və rayonunda 46 "KOB Dostu" fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının 4 şəhər və rayonunda da "KOB Dostları" fəaliyyət göstərəcək. Məqsəd Naxçıvanın iqtisadi potensialından maksimum istifadə etməklə "KOB Dostları" vasitəsilə dövlət dəstəyi mexanizmləri çərçivəsində sahibkarlığın inkişafına və yeni KOB subyektlərinin yaranmasına dəstək olmaq, KOBİA-nın dəstək və xidmətlərini Naxçıvan sahibkarları üçün daha əlçatan etməkdir. KOBİA sədri Naxçıvan sahibkarlarını "KOB Dostları" ilə aktiv əməkdaşlığa dəvət edib.

Orxan Məmmədov yaxın günlərdə Naxçıvanda KOB İnkişaf Mərkəzinin də açılacağını qeyd edib. Həmin mərkəz tərəfindən Naxçıvan sahibkarlarına ödənişsiz olaraq biznesin qurulması və inkişafı istiqamətində məsləhət, təlim, biznes planın hazırlanması və digər xidmətlər göstəriləcəkdir.

Tədbir çərçivəsində KOBİA-nın dəstək və xidmətlərinə dair filmlər nümayiş olunub, sahibkarların çətinlikləri və təklifləri dinlənilib, sualları cavablandırılıb.

KOBİA-nın nümayəndələri, həmçinin "Bolmart" supermarketlər şəbəkəsinin Naxçıvan filialının açılışında iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

2023-cü il "Heydər Əliyev İli"dir

# Ulu Öndər Heydər Əliyevin həyatının Naxçıvan dövrü arxiv sənədlərinin dili ilə

*Yüz il bundan əvvəl, bir yaz günü dünyaya göz açan xalqımızın Ümummilli Lideri Heydər Əliyev Vətənə və xalqa əvəzolunmaz xidməti ilə, sözün əsl mənasında, doğma Azərbaycanımızı əbədi bahara qovuşdurmuşdur. Tariximizin Heydər Əliyev epoxası müdrik rəhbərin parlaq dühasının, amal və əməllərinin nuruna boyanmış, müstəqil dövlətimizin bu günü də, gələcəyi də Ulu Öndərin əbədiyaşar siyasi kursunun, şanlı ideyalarının şəfəqlərinə bürünmüşdür.*

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Onun uşaqlıq və gənclik illəri Naxçıvanla bağlıdır. O, Naxçıvan şəhər natamam orta məktəbini bitirdikdən sonra 1936-1937-ci tədris ilində müəllim kadrlarının hazırlanmasında müstəsna xidməti olmuş Naxçıvan İnternasional Pedaqoji Texnikumuna daxil olmuşdur.

Araşdırılan arxiv sənədlərindən aydın olur ki, həmin tədris ilində Naxçıvan Pedaqoji Texnikumuna hazırlıq şöbəsi ilə birlikdə 170 nəfər tələbə qəbul edilmişdir. Bunlardan 30 nəfəri hazırlıq şöbəsinə və 140 nəfər tələbə A, B, C və D qruplarına bölünmüşdür. Ulu Öndərimiz "C" qrupunda oxumuşdur. Qrupda dahi rəhbər Heydər Əliyev ilə birlikdə oxuyanlardan Abbas Əliyev, Həsən Tahirov, Dövlət Məmmədov, Mustafa Əhmədov, Validə Allahverdiyeva, Hüseyn Məmmədov, Əli Quliyev, Pakizə Abbasova, Kərim Kərimov, Cəmil Rzayev, Abasət İsmayılov və başqalarının adlarını çəkmək olar (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, F.8, s.2, s/v.64).

1936-1939-cu tədris illərində texnikumda oxuduğu dövrdə dövrünün ən yaxşı müəllimlərindən Tofiq Bektaşi, Murad Tutayuk, Əli Əliyev, Lətif Hüseynzadə, Xədicə Yusifbəyli kimi pedaqoqlardan elmin sirlərini öyrənən dahi şəxsiyyət Heydər Əliyev həmin təhsil ocağını əla qiymətlərlə bitirmişdir. Bu, 25 iyun 1939-cu il tarixdə verilmiş 2027 №-li attestatda da öz əksini tapır. Oxuduğu müddətdə tam təqaüd almış, ona verilən xasiyyətnamədə "çalışqan və təmkinli" tələbə olduğu qeyd edilmişdir (F.8, s.2, s/v.96).

O dövrdə bu böyük şəxsiyyətə dərs demiş Lətif Hüseynzadənin sevimli şagirdi ilə bağlı xatirələri çoxdur. O bu xatirələrinin birində iftixar hissi keçirərək demişdir: "O zaman texnikumda dil və ədəbiyyat dərslərini tədris edirdim. Gələcəyin dahisi Heydər Əliyev məktəbdə ən savadlı, ən qabiliyyətli tələbələrdən biri idi. Texnikumda tez-tez ekskursiyalar təşkil olunurdu. Qayıdandan sonra o bu ekskursiyalar zamanı gördüklərini çox gözəl təsvir və nəql edərdi. Maraqlı inşalar yazardı. Bəzi yerlərin çertyojunu, rəsmlərini məharətlə çəkirdi. Düzü, biz müəllimlər onun bu qabiliyyətinə heyran qalırdıq..."

Ulu Öndərimiz "İstiqlal" ordenli Əməkdar müəllim Lətif Hüseynzadəyə həsr olunmuş dövlət tədbirlərinin birində demişdir: ***"Pedaqoji texnikumda bizə Azərbaycan dilinin incəliklərini öyrədən, Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı öyrədən gözəl müəllimlərimiz var idi. Amma bu müəllimlərin içərisində Lətif Hüseynzadə xüsusi yer tutur… O, sinifdə lövhədə Azərbaycan dilinin qrammatikasından yazırdı, yəni hər bir sözün düzgün yazılışını. Bir də Azərbaycanın ədəbiyyatını, görkəmli dövlət xadimi şairlərimizi, yazıçılarımızı öyrədirdi"***

Heydər Əliyev hələ Naxçıvanda orta məktəbdə oxuduğu illərdə, daha sonrakı təhsil illərində də yalnız "əla" qiymətlərlə oxumuş, həmişə də öz müəllimlərinə böyük hörmət və ehtiramla yanaşmış, onları daim minnətdarlıqla xatırlamışdır: ***"Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimlərimin hamısı yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumağım mənim üçün çətin olmayıb. Əksinə, burada olduğu kimi, tələbələr arasında da seçilmişəm..."*** Ümummilli Liderin gənclik dövrü, tələbəlik illəri və həmin dövrdə onun öz müasirləri arasında liderlik xüsusiyyətləri ilə necə seçildiyini göstərən sənədlərə nəzər salarkən 1936-1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda Ulu Öndərlə birlikdə təhsil almış Həsən Tahirovun xatirələrinə rast gəlirik:

"1936-1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunun tələbələri kimi keçirdiyimiz günlər, acılı-şirinli duyğular, çətin günlərdə gələcəyin böyük dövlət xadimi Heydər Əliyevdən gördüyümüz yaxşılıqlar indi bir-bir gözlərim önündə canlanır. Texnikumda təhsil alanların əksəriyyətindən fərqli olaraq o, ətraf rayonlarda deyil, məhz Naxçıvan şəhərində anadan olmuş və burada yaşayırdı. Yoldaşlarımız arasında baş verən hər hansı münaqişəni tezliklə və ədalətlə aradan qaldırırdı. Yeniyetmə olmasına baxmayaraq, özünü elə aparırdı ki, hamıya hər sözünün, hər hərəkətinin yerini bilən insan təsiri bağışlayırdı. Buna görə də özünə qarşı hamımızda bir heyranlıq yaratmışdı. Ən yaxşı cəhətlərindən biri o idi ki, bütün qrup yoldaşlarına, texnikumun başqa kurslarında oxuyanların hamısına eyni münasibət bəsləyirdi. Dərs oxumağı ilə nümunə göstərirdi. Güclü yaddaşı və məntiqi ilə onu tanıyanlarda, tələbə və müəllimlərdə təəccüb doğururdu. Sadə geyinirdi, səliqəli görünərdü. Təmkinli, dərrakəli və ağıllı idi. Dərslərinə ciddi hazırlaşırdı. Yoldaşlarına da yaxından kömək edirdi. Sanki dünyaya insanlara kömək etmək üçün gəlmişdi. Yalana, riyakarlığa nifrət edirdi, ədalətsizliyi bağışlaya bilmirdi. Bu da onun təbiətindən doğurdu.

...1937-ci ilin sentyabrı idi. Qardaşlarım Hüseyn və Əhmədlə texnikumda mənimlə birgə təhsil alırdılar. Bir gün direktor bizi yanına çağırıb dedi ki, bu gündən etibarən sizə pulsuz yemək verilməyəcək. Dərhal vəziyyətin nə yerdə olduğunu anladım. Atam Məşədi Əli repressiya qurbanı olduğundan biz də "xalq düşməni"nin oğulları idik. Çox çətin vəziyyətə düşmüşdük. Atamızı repressiyanın qurbanlarından biri kimi damğalayaraq güllələmişdilər (ona yalnız 1956-cı ildə bəraət verildi). Əlimiz hər yerdən üzülmüşdü. Hamının dərin hörmətini qazanmış Heydər Əliyev vəziyyətin nə yerdə olduğunu bilən kimi işə qarışdı. Ertəsi gün onunla texnikumun qarşısında görüşəndə dedi ki, bu gündən sizə yemək verəcəklər. Bu böyük insanın müəllimlər arasındakı hörməti bizi çox çətin vəziyyətdən çıxardı. Bu yaxşılığı heç vaxt unutmayacağam. O dövrdə müəllimlərimiz qeyri-adi fitri istedada malik Heydər Əliyevə deyirdilər ki, sən gələcəyin dahi şəxsiyyətlərindən olacaqsan, Naxçıvanın, Azərbaycanın adını ucaldacaqsan. Texnikumda bizə çox savadlı müəllimlər dərs deyirdilər. Hərbi rəhbərimiz Akim Abbasov idi. Lətif Hüseynzadə, Cəlil İsgəndərli ədəbiyyat, Tofiq Bektaşi riyaziyyat, Əsəd Cəfərli anatomiya, Həsən bəy Qazıyev rus dili, Əsgər Əhmədov isə kimyanı tədris edirdi. Bütün müəllimlərimiz Onun xətrini çox istəyir və daim tələbələrə nümunə göstərirdilər. O, istisnasız olaraq bütün fənləri əla oxuyurdu. Ona hələ 13 yaşında müəllimlərimiz "general" deyirdilər. Onun iti məntiqi qarşısında heç kəs dayana bilməzdi. Hərbçilik qabiliyyətinə isə söz ola bilməzdi. Bundan əlavə, həvəskar teatrda da çalışırdı, tamaşalarda, adətən, baş rolları oynayır, xalq qəhrəmanı obrazlarını canlandırırdı. İdmanla da məşğul olurdu.

Sinəsi şirin xatirələrlə dolu olan Həsən müəllim qazandığımız hər bir uğura görə Ümummilli Liderimizə borclu olduğumuzu dönə-dönə təkrarlayaraq əlavə etmişdir: "Texnikumda birlikdə oxuduğu yoldaşlarının Ulu Öndərimizlə bağlı dedikləri əsasında belə bir fikir formalaşır: "Pedaqoji texnikumu əla qiymətlərlə bitirərkən hamımız bilirdik ki, Heydər Əliyev dahi insan olacaq".

Texnikumu bitirdikdən sonra bu böyük şəxsiyyət Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Memarlıq fakültəsinə daxil olmuş, lakin İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa vurmağa imkan verməmişdir. Arxiv sənədlərindən məlum olur ki, müdrik rəhbərin xalqa, Vətənə misilsiz xidmət nümunəsi olan möhtəşəm əmək fəaliyyətinin də ilk səhifələri Naxçıvanla bağlıdır. 15 oktyabr 1941-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Arxiv şöbəsi üzrə 80 nömrəli əmrə əsasən və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığı ilə (baş leytenant, yoldaş Quliyev) Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul edilmişdir (F.314, s.2, s/v.1).

6 iyun 1942-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının baş leytenantı yoldaş Quliyevin sanksiyasına əsasən elmi işçi Heydər Əliyev Mərkəzi Dövlət Arxivinin məxfi şöbəsinə müdir vəzifəsinə keçirilmişdir. (F.314, s.2, s/v.4) 3 iyun 1943-cü ildə Naxçıvan MSSR Hərbi Komissarlığının rəsmi məktubuna və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığına əsasən 22 nömrəli əmrlə (mayor yoldaş Nağıyev) hərbi xidmətə çağırışla əlaqədar tutduğu vəzifədən azad olunur (F.314, s.2, s/v.3).

Daha sonra 14 iyul 1943-cü ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığı nəzdində 45 nömrəli əmrlə müvəqqəti Naxçıvan MSSR Xalq Komissarları Sovetinə ümumi şöbənin müdiri təyin edilmişdir (F.2, s.2, s/v.20).

17 may 1944-cü ildə isə başqa işə keçdiyi üçün 27 nömrəli əmrlə Heydər Əliyev Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin ümumi şöbənin müdiri vəzifəsindən azad edilir. Bundan sonra o, dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir (F.2, s.2, s/v.21).

*Ulu Öndər Heydər Əliyev hansı vəzifədə işləməsindən, harada yaşamasından asılı olmayaraq, daim Vətən və xalq üçün çalışmış, son dərəcə böyük, taleyüklü məsələlərin öhdəsindən məharətlə gəlmişdir. Xalqımız qarşısında müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Liderin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi hər birimiz üçün böyük məktəbdir və Azərbaycan xalqı var olduqca Ulu Öndər də var olacaqdır.*



**Aygün HƏMZƏYEVA,**
**Günel HÜSEYNOVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin əməkdaşları***

# Birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb



*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universiteti arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.*

Ali Məhkəmənin sədri Səadət Bəktaşi tədbirdə çıxış zamanı qeyd edib ki, hazırkı tədbir əlamətdar ərəfəyə təsadüf edir. Belə ki, bu il mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olunmuşdur. Ulu Öndərimiz tərəfindən əsası qoyulmuş məhkəmə-hüquq islahatları Prezident cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Ölkədə aparılan bu islahatların əsas məqsədlərindən biri də işində məsuliyyətli, savadlı və peşəkar hüquqşünasların yetişdirilməsi, onların hüquq sistemində öz layiqli yerlərini almasıdır.

Bildirilib ki, Naxçıvan Dövlət Universiteti özünün çoxşaxəli fəaliyyəti ilə universitetin kadr hazırlama imkanları xüsusilə təqdirəlayiqdir. Ali Məhkəmənin sədri hazırda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşlarının əksəriyyətinin və məhkəmə sistemində fəaliyyət göstərən hakimlərin müəyyən hissəsinin bu universitetin məzunları sırasından təşkil olduğunu diqqətə çatdırıb.

Vurğulanıb ki, birgə əməkdaşlıq haqqında imzalanacaq memorandumda Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur ki, bu da, öz növbəsində, Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində genişmiqyaslı layihələrə, təlimlərə və təcrübə proqramlarına qoşulmaları, həmçinin əməkdaşlıq çərçivəsində elmi-praktiki konfransların, seminarların, təlim kurslarının, mühazirə və görüşlərin təşkili üçün geniş imkanlar yaradacaqdır.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev ali təhsil ocağının fəaliyyəti, aparılan islahatlar haqqında geniş məlumat verərək bildirib ki, hazırda universitetdə 75 bakalavr, 80 magistr, 40 doktorantura və 40 rezidentura proqramı üzrə kadr hazırlığı həyata keçirilir. Beynəlxalq münasibətlər və hüquq fakültəsində isə 514 tələbə təhsil alır. Tələbələrin günün tələblərinə uyğun, əmək bazarının tələbatına cavab verməli potensialına malik, hazırlıqlı formada yetişdirilməsi baxımından imzalanacaq memorandum vacib əhəmiyyət daşıyır. Rektor birgə əməkdaşlıq haqqında anlaşma memorandumunun əhəmiyyətindən də danışmışdır.

Birgə əməkdaşlıq haqqında anlaşma Memorandumunu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev imzalayıblar.

Sonda hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Həkim-rezidentlərlə görüş

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov muxtar respublikanın tibb müəssisələrində rezidentura təhsili alan həkim-rezidentlərlə görüşüb.*



Görüşdə Daxili xəstəliklər, Hematologiya, Orologiya, Stomatologiya, Nevrologiya, Pediatriya, Travmatologiya, Endodontiya, Oftalmologiya, Fizioterapiya, Nevrologiya, Kardiologiya və digər ixtisaslar üzrə, ümumilikdə, 70-ə yaxın rezident iştirak edib.

Görüş zamanı Samiq Sadıxov rezidentlərin yüksəkixtisaslı həkim kimi yetişməsi, elmi araşdırmaların aparılması üçün muxtar respublikanın səhiyyə ocaqlarında yaradılan imkanlar, daha çox vurğulanan problemlərin həlli yolları istiqamətində ətraflı məlumat verib, rezidentura təhsili səviyyəsinin yüksəldilməsinin tibb müəssisələrinin yerli kadrlarla təmin olunmasındakı əhəmiyyətindən danışıb. Bildirib ki, rezidentlər təyin edilmiş məsul şəxslə – kuratorla sıx əlaqədə işləməli, xəstələrin müayinə və müalicələrində, gecə növbələrində, eləcə də həkimlərlə birgə ilkin xəstə qəbulunda yaxından iştirak etməli, müalicə protokollarından düzgün istifadə qaydalarını yaxşı bilməlidirlər.

Samiq Sadıxov bildirib ki, bundan sonra rezidentlərin fəaliyyətlərində onlara lazımi dəstək göstəriləcək, gələcəkdə ixtisasları üzrə təkmilləşdirmə kurslarına göndərilmələri üçün lazımi tədbirlər görüləcək.

Tədbirin sonunda təhsil və təcrübə səviyyələrinin keyfiyyətinin artırılması istiqamətində təkliflərlə çıxış edən rezidentlərin fikirləri, problemləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, son günlərdə muxtar respublikada aparılan səhiyyə islahatlarının davamı olaraq müvafiq sərəncamla "Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi" publik hüquqi şəxsin baş həkimi Kəmalə Qurbanova tutduğu vəzifəsindən azad edilib.

Naxçıvan Doğum Mərkəzi əhalinin ən çox narazı qaldığı, korrupsiyalaşmış və insanların incidildiyi səhiyyə müəssisəsi idi. Baş həkim vəzifələrinin müvəqqəti icrası baş həkimin müavini Nəzakət Quliyevaya həvalə olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov:
## *“İnanırıq ki, Naxçıvanda “KOB Dostları”nın fəaliyyət istiqamətləri üzrə aktivlik yüksək dərəcədə olacaq”*

Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının Naxçıvan, Culfa, Şahbuz şəhərlərində və Sədərək rayonunda “KOB Dostları”nın fəaliyyətə başlaması ilə əlaqədar aprelin 19-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə sahibkarlarla görüş keçirilib.



Görüş başlanmazdan öncə ***KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov*** “Şərq qapısı” qəzetinə müsahibə verib, KOBİA-nın, Naxçıvanda yeni açılan “KOB Dostları”nın fəaliyyət istiqamətləri, gələcək planlar barədə danışıb: – Biz bu gün Naxçıvan şəhərindəyik və əlamətdar bir haldır ki, KOBİA-nın növbəti nümayəndəliyini, yəni “KOB Dostu” şəbəkəsini Naxçıvan Muxtar Respublikasında açırıq. Bu yeni ofislər Naxçıvan şəhərini və muxtar respublikanın ətraf rayonlarını əhatə edəcək. Burada beş nümayəndəmiz olacaq, artıq onlar təyin ediliblər. İnanırıq ki, bu layihə sahibkarlar üçün faydalı, xeyirli olacaq. Çünki, əsasən, “KOB Dostu”nun vəzifəsi, bildiyiniz kimi, sahibkarların yanında olmaqdır, sahibkarların təkliflərini eşitməkdir, onların problemləri varsa, yerində dərhal həll etməkdir. Ən əsası dövlət orqanları və başqa qurumlarla sahibkarlar arasında körpü rolunu oynamaqdır və hansısa məsələlər olduqda dərhal onlara çatdırmaqdır. Bu gün biz Biznes Mərkəzinə yığışmışıq. Burada sahibkarlara “KOB Dostu”nun məhiyyətinin nədən ibarət olduğunu anladacaq, bu şəbəkənin onlara necə kömək edə biləcəyini izah edəcəyik. Ən əsas məqsədimiz KOBİA-nın dəstək mexanizmlərini sahibkarlara anlatmaqdır. Bizim maliyyə alətlərimiz, dəstək paketlərimiz mövcuddur. Eyni zamanda KOB İnkişaf Mərkəzi vasitəsilə bilik-bacarıqların artırılması istiqamətində fəaliyyətimiz vardır. KOB İnkişaf Mərkəzi də bir neçə həftədən sonra fəaliyyətə başlayacaq və sahibkarlara izah edəcəyik ki, bu dəstək mexanizmlərindən, maliyyə alətlərindən rahat istifadə edə bilsinlər. Necə ki bütün Azərbaycana biz bu şəbəkə vasitəsilə öz xidmətlərimizi göstəririk. İnanırıq ki, “KOB Dostları”nın fəaliyyət istiqamətləri üzrə Naxçıvanda aktivlik yüksək dərəcədə olacaq.

Naxçıvanda “KOB Dostları”nın fəaliyyət mexanizmlərinə uyğun aktiv, fəal biznes sahələrinə də toxunan KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov deyib: “Ənənəvi olaraq kənd təsərrüfatı sahəsi üzrə burada aktivlik olacaq. Eyni zamanda turizm Naxçıvanda son illərdə inkişaf edir, bildiyiniz kimi həmsərhəd, qonşu ölkələrlə də burada aktivlik var və inanırıq ki, bu iki sahə əsas fəaliyyət istiqaməti olacaq. Bundan başqa, informasiya texnologiyaları, sənaye, yüngül sənaye sahələri də nəzərdə tutulur. Ənənəvi müraciətlər olanda biz görürük ki, bu sahələr inkişaf edib. Çalışacağıq ki, bu sahələrə daha çox dəstək mexanizmləri çatdıraq. Əlbəttə, sahibkarlarda maraq doğuracaq bütün sahələr üzrə çalışacağıq.

**✍ Nail ƏSGƏROV**

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin kollektivi nazirliyin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ədliyyə orqanlarında qeyd edilməsi ilə bağlı təsdiq etdiyi Tədbirlər Planına müvafiq olaraq Ümummilli Lider Heydər Əliyevin adını daşıyan muzeyi ziyarət edib. Əvvəlcə, Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad edilib.*




Muzey ilə tanışlıq zamanı muzeyin yaradılması və eksponatları barədə iştirakçılara məlumat verilib. Bildirilib ki, 10 may 1999-cu ildə fəaliyyətə başlayan Heydər Əliyev Muzeyi Ümummilli Liderimizin sağlığında onun şərəfinə Azərbaycan Respublikasında yaradılmış ilk muzeydir. Muzeyin fondunda görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 5 mindən çox eksponat sərgilənir.

Vurğulanıb ki, muzeydə Ümummilli Lider Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, istifadə etdiyi xatirə əşyaları, xüsusilə Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, həyata keçirdiyi tədbirlər, sənədlər, məktub və teleqramlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı tarixi müqavilələrin surətləri, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri, Ulu Öndərin şərəfinə toxunmuş xalçalar, çəkilmiş portretlər, tarixi fotolar və sənədli filmlər nümayiş etdirilir.

Sonda nazirliyin kollektivi muzeyin ekspozisiyası ilə yaxından tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində istehsalat təcrübəsində olan Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və audit ixtisası üzrə təhsil alan IV kurs tələbələri arasında keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavin Həsən İsmayılov açıb. O, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli idarəçilik fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, görkəmli dövlət xadiminin xalqın tələbi ilə yenidən hakimiyyətə gəlişindən sonra ölkədə siyasi sabitliyin bərqərar olması nəticəsində maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. Büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Azərbaycan öz iqtisadi inkişaf sürətinə görə bütün dünyada öncüllər sırasında mövqeyini qorudu.



Ümumilikdə, yarışda 25 nəfərdən ibarət 5 komanda iştirak edib. Dörd mərhələdən ibarət olan yarış mühasibat uçotu, maliyyə, büdcə qanunvericiliyi və Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti ilə bağlı mövzuları əhatə edən suallar əsasında keçirilib. Maraqlı və gərgin yarışda öz fəallığı və intellektual səviyyəsi ilə seçilən qalib komandalar növbəti mərhələdə iştirak etmək hüququ qazanıblar. Yarış iki yarımfinal və bir final mərhələsindən ibarət olub. Qalib komandalar turlar üzrə qazanılmış xalların cəminə görə müəyyən edilib, “Gəlirlər” komandası birinci, “Nəzarət” komandası ikinci, “Xəzinə” komandası üçüncü yerin qalibi olub.

Sonda nəticələrə uyğun olaraq qalib komandalara Maliyyə Tədris Mərkəzinin sertifikatları və hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

* * *

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Ölkəmizdə demokratik seçki ənənəsinin formalaşmasında Heydər Əliyev irsi” mövzusunda seminar keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyaraq dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub, dahi şəxsiyyətin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlar haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Mərkəzi Seçki Komissiyasının akt zalında davam edən tədbirdə Ulu Öndərin, eləcə də Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əjdər Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında yerləşən dairə seçki komissiyalarında keçirilən müxtəlif tədbirlər barədə məlumat verib. Bildirilib ki, Azərbaycanın dövlətçilik tarixinin çox mühüm mərhələsi dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər öz mənalı və zəngin ömrünü, bütövlükdə, millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etmiş, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərmişdir. Məhz dahi rəhbərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur. Bu görkəmli şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövr çoxəsrlik dövlətçilik tariximizin ən şanlı səhifələrindəndir.



Çıxışlarda diqqətə çatdırılıb ki, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, Ulu Öndərin ölkəmizdə apardığı məqsədyönlü siyasətin mərkəzində dayanan ən əsas məsələlərdən biri də Azərbaycan Respublikası vətəndaşının ictimai-siyasi sabitliyin qorunub saxlandığı bir ölkədə yaşamasının təmin edilməsi olmuşdur. Dahi şəxsiyyətin tərəfindən atılan qətiyyətli addımlar və görülən təxirəsalınmaz tədbirlər nəticəsində mühüm uğurlar əldə edilmiş, xalqın siyasi və ictimai asayişinin qorunduğu bir respublikada təhlükəsiz yaşamağı təmin olunmuşdur.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin şərəfli həyat yolunda və müdrik siyasi fəaliyyətindən bəhs edən videoçarx nümayiş edilib.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir çərçivəsində qonaqlar əvvəlcə dahi şəxsiyyətin şəhərimizin baş meydanında əzəmətlə ucalmış abidəsi önünə gül dəstələri qoyublar, dünya şöhrətli siyasi xadimin xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyinə baxış olub. Ekskursiya çərçivəsində qonaqlara məlumat verilib ki, Naxçıvan şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Muzeyi 1999-cu il mayın 10-da 420 eksponatla fəaliyyətə başlayıb. Hazırda isə muzeydə beş mindən çox eksponat var. Muzeyin ayrı-ayrı bölmələrində Ulu Öndər tərəfindən qəbul edilmiş qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, dahi şəxsiyyətin həyat və siyasi fəaliyyətini özündə əks etdirən kitab, qəzet və jurnallar, həmçinin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən istifadə etdiyi əşyalar, o cümlədən Ümummilli Liderə göndərilmiş məktub və teleqramlar, xatirə əşyaları şərəfli yolun müxtəlif anlarını özündə yaşatmaqla görkəmli dövlət xadiminin zəngin dövlətçilik və ictimai-siyasi irsi barədə dolğun təsəvvür yaradır.



Diqqətə çatdırılıb ki, muzeydə Ümummilli Liderin həyatı və fəaliyyəti ilə bağlı eksponatlar ehtiramla qorunur, tədqiq və təbliğ edilir. Onun zəngin irsi və dövlətçilik təcrübəsinin öyrənilməsi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır. Ötən illər ərzində Heydər Əliyev Muzeyi Ümummilli Liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı layiqincə yerinə yetirib. Bu gün də bu iş uğurla davam etdirilir.

**Qılman ZAMANBƏYOV**

***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

* * *

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar “Açıq qapı” günü keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbələri iştirak ediblər.

Əvvəlcə tələbələr buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra onlara prokurorluğun kriminalistik avtomaşının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.



Prokurorluğun iclas zalında keçirilən tədbirdə çıxışlardan əvvəl Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Təşkilat və İcraya nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri Pərviz Zülfüqarov açaraq bildirib ki, Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Azərbaycanın bütün bölgələrində, müstəqil Azərbaycan Respublikasının memarı, dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü geniş qeyd edilir. Həmin tədbirlər Ulu Öndərimizin əziz və unudulmaz xatirəsinə dərin hörmətin bariz nümunəsidir. Bu gün Naxçıvan Muxtar Respublikası Prokurorluğunda “Açıq qapı” gününün keçirilməsində də məqsəd Ümummilli Lider Heydər Əliyevin siyasi irsi barədə tədbir iştirakçılarını məlumatlandırmaq, onları prokurorluğun fəaliyyət istiqamətləri ilə tanış etməkdən ibarətdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası prokurorunun köməkçisi, ədliyyə müşaviri İsfəndiyar Qasımov prokurorluq orqanlarının dövlət təsisatları sistemindəki yeri və prokurorluqda həyata keçirilən islahatlarla bağlı çıxış edib.

Prokurorluğun şöbə prokuroru, kiçik ədliyyə müşaviri Qumral Yusifova prokurorluq orqanlarına Ulu Öndər Heydər Əliyevin göstərdiyi qayğıdan danışıb.

Prokurorluğun şöbə prokuroru, kiçik ədliyyə müşaviri Taryel İsmayılov ittihamın müdafiəsi haqqında qanunvericilikdə nəzərdə tutulmuş prosedurlar haqqında iştirakçılara məlumat verib.

Sonda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov müəllifi olduğu “Qanunçuluq və hüquq düşüncəsi” adlı kitabını tələbələrə hədiyyə edib.

**✍ Səbuhi HƏSƏNOV**

# Unudulmaz alim, qayğıkeş ana



*Həyatda şərəfli və dəyərli bir ömür yaşayan, Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, sədaqəti, xalqa xidməti ilə yaddaşlarda qalan insanların əməlləri, xeyirxah işləri daim anılır. Tarix məhz belə insanların sayəsində yaranır, onların nəcibləşən ömürləri gələcək nəsillərə örnək, nümunə olur. Azərbaycanın görkəmli alimi, akademik Zərifə xanım Əliyeva kimi.*

Zərifə xanım Əliyeva qədim Naxçıvan diyarında, adlısanlı ziyalıların Vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdı. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə xanım Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdı. Zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun insanların gözlərinə nur bəxş etmək amalından irəli gəlmişdi. Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Tələbəlik illərində fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyeva öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

O, ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Zərifə xanımın başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, onun optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır. Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq, indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun reallaşması Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd olunmalıdır ki, Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun “Herpetik göz xəstəliyi”, “Ağır virus konyunktivitləri” əsərləri bu qəbildəndir. Görkəmli alimin qələmə aldığı “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın “Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti” mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı. Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndərimiz deyirdi: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəliklərdən xilas etsin, sağlamlaşdırsın”.***

Zərifə xanım Əliyevanı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Zərifə xanım Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Akademik Zərifə xanım Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O həm də “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım Əliyeva bir sıra orden və medallara layiq görülmüşdü.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrlarının yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında yüksək fikirlər söyləmişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı *“oftalmologiyanın mirvarisi”* adlandırırdı. Dünya şöhrətli oftalmoloq akademik A.Nesterov demişdir: *“Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi.”* Akademik N.Puçkovskaya *“Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi”* deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor A.Brovkina onu *“nəciblik və mənəvi paklıq timsalı”* adlandırmış, professor N.Şulpina Zərifə xanımı *“biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik”* demişdir.

Bütün bu elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım, eyni zamanda qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olmuşdur. Deyirlər, ana övladını özündən də çox istəyir. Tanrının bəxş etdiyi övladlarına qarşı Zərifə xanım da məhz belə ana idi. Enişli-yoxuşlu ömür yollarında birgə addımladığı həyat yoldaşı, Ümummilli Liderimiz Heydər Əliyev gərgin fəaliyyətlə məşğul olan, həyatını, bütövlükdə, Azərbaycana həsr edən böyük şəxsiyyət kimi yorulmadan müqəddəs amallar yolunda öz qüvvəsini əsirgəmirdi.

Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Unudulmaz alim, qayğıkeş ana olan Zərifə xanım xalqımız tərəfindən ehtiramla yad olunmağa layiqdir.

Təəssüf ki, müstəqil Azərbaycanımızın bu gününü görə bilmədi Zərifə xanım. Ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində dünyasını dəyişdi. Azərbaycan adlı bir məmləkəti hər cür təqiblərdən qoruyan, bu torpağa qol-qanad verən, onu bütün dünyaya tanıdan bir insanı tək qoyub getdi. Ulu Öndərimizin həyatı qədər sevdiyi Zərifə xanımı itirdi, onun yoxluğu ilə heç cür barışa bilmədi. Bir azca qəddi də əyildi, amma sınmadı. Yaşadı...

Qəlbində olan Azərbaycan sevgisi onu yaşatdı. Çünki O, Azərbaycan üçün lazım idi. Dərin bir uçuruma yuvarlanan Azərbaycanı ancaq o xilas edə bilərdi. Xilas etdi də. Qalan ömrünü Odlar Yurdunun rifahı naminə fəda etdi. Azərbaycanın inkişafı üçün əlindən gələni əsirgəmədi. Lakin həmişə onun ruhunu yanında hiss etdi, ondan güc-qüvvə aldı. 2003-cü il dekabrın 12-də Zərifə xanımın kədərli baxışlarına bir sevinc bəxş etdi. Enişli-yoxuşlu yollarda birgə addımladığı ömür-gün yoldaşına qovuşdu. Bir-birlərinə qovuşduqları üçün sevindilər. Amma arxada gözü yaşlı milyonlarla insan qaldı...

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident cənab İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: ***“Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 3 noyabr tarixli Sərəncamına əsasən akademik Zərifə Əliyevanın 100 illik yubileyinin ölkəmizdə geniş qeyd edilməsi xalqımızın bu layiqli övladına, ideal Azərbaycan qadınına və anasına milyonların ürəyindən gələn sevgi və ehtiram nümunəsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini uğurla davam etdirir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafı üçün əlindən gələni edir. Özünün ictimai fəallığı və şəxsi örnəyi ilə müasir Azərbaycan qadınının bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirir.

***Zərifə xanım Əliyevanın adı bu gün də Azərbaycanda fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir. Ömrünü insanların sağlamlığının qorunmasına həsr etmiş bu nəcib xanım, məhz bütün keyfiyyətlərinə görə hər zaman, hər kəs tərəfindən sevilir, əziz xatirəsi ehtiramla yad edilir.***

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru***

*1906-cı ilin 7 aprelində "Molla Nəsrəddin" jurnalında bütün Türk dünyasına "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım", – deyərək fikirlərini səsləndirən Cəlil Məmmədquluzadənin idealları dövrün ziyalıları tərəfindən böyük maraqla qarşılandı. Yaradıcılığı ilə türk-müsəlman xalqının mövcud problemlərinə qarşı, milli təfəkkürün oyanması uğrunda mübarizə aparan Mirzə Cəlil bu gün də ədəbiyyatşünaslarımız tərəfindən xalqının, türk-müsəlman dünyasının istiqlal mücahidi, istiqlal ədəbiyyatımızın sərkərdəsi kimi dəyərləndirilir. Mirzə Cəlil yaradıcılığında türkçülüyün nə qədər əhəmiyyətli olduğunu öyrənmək üçün Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti, Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalının ardıcıl tədqiqatçılarından olan İman Cəfərovla həmsöhbət olmaq qərarına gəldik. Cəlil Məmmədquluzadə ilə bağlı bir kitabın, 60-dan çox elmi məqalənin müəllifi olan İman müəllimə ilk sualı belə ünvanladıq:*

# Türk-müsəlman dünyasını milli oyanışa çağıran böyük demokrat ədib

***– İman müəllim, sizcə, Cəlil Məmmədquluzadə yaradıcılığında Türk dünyası mövzusu nə dərəcədə yer tutur?***

– Azərbaycanda bolşevizmin hakimiyyətdə olduğu dövrdə Cəlil Məmmədquluzadə yaradıcılığı, o cümlədən "Molla Nəsrəddin" jurnalı hakim ideologiyaya qadın azadlığı uğrunda, mövhumata, cəhalətə, elmsizliyə qarşı mübarizə üçün lazım olmuş, böyük Mirzə Cəlilin sənət dünyası, əsasən, məhz bu istiqamətlərdən öyrənilmiş, hətta Cəlil Məmmədquluzadə Azərbaycanda yaşayaraq Turançılıq ideologiyasını təbliğ edən Əli bəy Hüseynzadə kimi qüdrətli fikir adamları ilə qarşıdurmada tanıtdırılmışdır. Halbuki "Molla Nəsrəddin"in birinci sayında Cəlil Məmmədquluzadənin "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" müraciəti, əsasən, türk-müsəlman dünyasına ünvanlanmışdır. Qəti şəkildə deyə bilərik ki, böyük ədibin hər bir əsərində türk ruhunun təntənəsi ilə qarşılaşırıq. Cəlil Məmmədquluzadə bütün varlığı ilə Türk dünyasına bağlı olmuş, Türk dünyasının qlobal problemlərindən cəsarətlə söz açmışdır.

***– Bəs Mirzə Cəlil Türk dünyasının daha çox hansı problemlərini işıqlandırmışdır?***

– O öz əsərlərində, əsasən, Türk dünyasının taleyüklü məsələlərindən söz açmışdır. "Molla Nəsrəddin" jurnalının ilk sayından başlayaraq türk dilinin saflığı uğrunda mübarizəyə başlamışdır ki, bu da təsadüfi deyildir. Mütəfəkkir ziyalı Türk dünyasının sabahını türk xalqlarının birliyində gördüyündən bu birliyi şərtləndirəcək bütün amilləri nəzər nöqtəsinə çəkir, belə bir mövqedən çıxış edirdi ki, türk xalqlarının birliyini təmin etmək üçün, ilk növbədə, türk dillərinin saflığına nail olmaq lazımdır. Yenə də təsadüfi deyildir ki, "Molla Nəsrəddin" məcmuəsinin ilk sayındakı "Sizi deyib gəlmişəm" yazısı bu cümlələrlə bitir: "Sözümü tamam etdim, ancaq



bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdən bir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki ananız sizi beşikdə yırğalayayırğalaya sizə türk dilində lay-lay deyirdi...

Hərdənbir ana dilini danışmaqda keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!"

Bəli, Cəlil Məmmədquluzadəni Türk dünyasının tarixi, mövcud vəziyyəti və sabahı ciddi şəkildə düşündürmüşdür. Xüsusən də Türkiyə ilə bağlı hər bir ciddi məsələyə operativ və obyektiv münasibət bildirmiş və bu məqamda birmənalı olaraq türk xalqlarının mövqeyindən çıxış etmiş, öz qələmi ilə Türk dünyasının müdafiəsində dayanmışdır.

***– İman müəllim, "Molla Nəsrəddin" jurnalında hansı felyetonu, yaxud məqaləni Türkiyədən bəhs edən ilk müstəqil mətbu əsər kimi dəyərləndirə bilərik və həmin yazıda Cəlil Məmmədquluzadə hansı problemi gündəmə gətirib?***

– Qeyd etdiyimiz kimi, ozamankı Türkiyə dövlətinin problemləri Mirzə Cəlili həmişə ciddi şəkildə düşündürmüşdür. Xüsusən də Osmanlı Türkiyəsində II Əbdülhəmidin müstəbidliyi, ölkədə söz azadlığının yoxluğu "Molla Nəsrəddin" jurnalında müxtəlif felyetonlar daxilində daim nəzər nöqtəsinə çəkilmişdir. Bununla belə, fikrimizcə, məcmuədə Osmanlı Türkiyəsindən bəhs edən ilk müstəqil yazı jurnalın 18 noyabr 1907-ci il tarixli 43-cü sayında getmiş "Batdağ" felyetonudur. Düşünürük ki, felyetonun "Batdağ" adlandırılması da müəyyən bir estetik məram daşımaqdadır. Əslində, felyetonda bütünlüklə Sultan Əbdülhəmidin azadlıq düşməni olmasından söz açılır. Cəlil Məmmədquluzadə aydın şəkildə bildirir ki, Əbdülhəmid rejimi Türkiyəni məhvə sürükləməkdədir. Əlbəttə, Mirzə Cəlili düşündürən heç də hansısa hökmdarın müstəbidliyi deyildi. Böyük Cəlil Məmmədquluzadə Türk dünyasının digər aydınları kimi, Türkiyəyə bütün türklərin ümid yeri kimi baxır, bu səbəbdən Türkiyədəki hər bir hadisəyə ciddi şəkildə münasibət bildirirdi.

***– İman müəllim, fikrinizcə, Cəlil Məmmədquluzadənin Turançılıq ideyasına münasibəti necə olub?***

– Bilirsiniz, Cəlil Məmmədquluzadə Azərbaycanda tənqidi realizm ədəbi cərəyanının ən qüdrətli nümayəndələrindən biri idi və ədəbiyyata da məhz tənqidi realizm prinsiplərindən yanaşır, qeyri-real romantik ədəbiyyatı gərəksiz sayırdı. Eyni səbəbdən o, təfəkkürlərin zamanı çatmamış Turançılıq ideyası ilə məşğul edilməsinin əleyhinə idi. Bəli, əsərlərində Cəlil Məmmədquluzadəni türk təəssübkeşliyinin böyük nümayəndəsi kimi də görürük. O hesab edirdi ki, Türk dünyasının birliyinə gedən yol ayrı-ayrı türk dövlətlərinin inkişafından keçir. Bu səbəbdən böyük yazıçı istər Osmanlı türklərinin, istərsə də Orta Asiya türklərinin problemlərindən eyni narahatlıqla söz açırdı.

***– Cəlil Məmmədquluzadə Türk dünyasını təmsil edən hansı şəxsiyyətlərin həyat və fəaliyyətlərini, mübarizə və yaradıcılıqlarını daha yüksək qiymətləndirirdi?***

– Qeyd edək ki, XX əsr Azərbaycan ədəbiyyatşünaslığı, əsasən, Mirzə Cəlilin rus və Avropa müəlliflərinin əsərlərindən təsirləndiyi qənaətində olmuş, onun Qoqol, Puşkin, Tolstoy haqqında söylədiyi müsbət fikirlər təhlil obyektinə çevrilmişdir. Halbuki Mirzə Cəlilin yaradıcılığında Türk dünyasını təmsil edən böyük şəxsiyyətlərdən ürəkdolusu söz açıldığını görürük. Fikrimizin təsdiqi üçün "Türkiyə məşrutəsinin keçmişindən" məqaləsinə diqqət yetirmək kifayətdir. "Zaqafqazye" qəzetinin 13 iyul 1907-ci il tarixli 137-ci sayında getmiş həmin məqalədə Türkiyə dövlətçilik tarixində Sultan Səlimin xidmətləri yüksək dəyərləndirilməklə yanaşı, Türkiyə dövlət adamı Midhət paşadan da ehtiramla söz açılmışdır. Hətta təsadüfi deyildir ki, Cəlil Məmmədquluzadə böyük oğlunun adını Midhət qoymuşdur. Mirzə Cəlil, eyni zamanda Türk dünyasının ozamankı vəziyyəti haqqında da düşünən, türk xalqlarının inkişafına, birliyinə çalışan qüdrətli zəka sahiblərinin xidmətlərinə də laqeyd qalmamış, "Molla Nəsrəddin"in müxtəlif saylarında həmin böyük şəxsiyyətlərin xidmətlərindən ayrı-ayrı məqamları diqqət mərkəzinə çəkilmişdir. Məsələn, XIX əsrin sonu və XX əsrin əvvəllərində Türk dünyasının birliyinə nail olmağa çalışan zəka sahiblərindən biri də İsmayıl bəy Qaspıralı idi. 1851-1914-cü illərdə yaşayıb-yaratmış İsmayıl bəy Qaspıralı da ömrü boyu Türk dünyasının tərəqqisi uğrunda mübarizə aparmış, hətta 1983-cü ildən nəşr etdirdiyi "Tərcüman" qəzetini 1912-ci ildən "Dildə, fikirdə, işdə birlik!" şüarı ilə oxuculara təqdim etmişdir. Cəlil Məmmədquluzadə bəzi məsələlərə münasibətdə İsmayıl bəy Qaspıralı ilə razılaşmasa da, bu böyük türk oğlu dünyasını




dəyişdikdə onun nekroloq şəklini "Molla Nəsrəddin"in birinci səhifəsində vermişdir. Ümumiyyətlə, Türk dünyası tarixində türk oğlu türklərin sırasında Cəlil Məmmədquluzadə birinci cərgədə yer tutmaqdadır.

*Aldığımız müsahibədən və araşdırmalarımızdan məlum olur ki, böyük ədib, görkəmli publisist Cəlil Məmmədquluzadənin redaktorluğu ilə işıq üzü görən Şərqin ilk satirik jurnalı "Molla Nəsrəddin" nəşr olunduğu birinci sayından etibarən (1906-cı il aprel ayının 7-də (yeni təqvimlə 20-də) Tiflisdə işıq üzü görüb) nəşri boyu – müəyyən fasilələrlə işıq üzü gördüyü 25 il ərzində milli ideyalar – Azərbaycançılıq, milli dirçəliş və intibah kimi fundamental məsələləri ana məramına çevirmiş, bu ideyaları türkçülük və Turançılıq kontekstində götürmüş, bütünlükdə, türk-müsəlman dünyasının inkişaf və tərəqqisi uğrunda mübarizə aparmışdır. Məhz buna görə də bu satirik jurnal ümumbəşəri, milli ideyaları ilə hər zaman öz aktuallığını qoruyub saxlamaqda, müqəddəs məramı ilə milli jurnalistikamızın yoluna işıq salmaqdadır.*

**✍ Bülbül QULİYEVA**

*Mollanəsrəddinsayağı*

# Meymunlar səltənətinə səyahət

**(felyeton)**

*İsti ölkələrə səyahət edən turistlər yaxşı bilirlər ki, şəhərdən kənara çıxanda, bəzən şəhərin içində elə gülməli canlılara rast gələrsən ki, bu, sözün əsl mənasında, adamın heç zaman unutmayacağı qəribə təəssürat yaradar. Bəli, bunlar oğru meymunlardır ki, ağacdan-ağaca, divardan-divara tullanaraq fürsət düşən kimi əlinə keçəni qapıb qaçırdırlar, sahibindən bir banan almayınca qaytarmırlar. Amerika filmlərindəki kimi qisasçı meymunlar olmadığından, burada yaşayan insanlar da bu dəcəl canlıların hərəkətlərinə adət etmiş kimi rahatca öz həyatlarını davam etdirirlər.*

Ancaq sizə deyim ki, belə bir ekzotikanı yerindəcə görmək üçün haradasa Cənubi-Şərqi Asiyanın, yaxud Afrikanın mərkəzindəki cəngəlliklərə getməkdənsə, Türkiyə ilə Azərbaycanı bir-birindən ayıran 29 min kvadrat kilometrlik bir ərazidə zoopark həyatı keçirən hay tayfasının həyat tərzini də izləməyə dəyər. Əgər meşəyə canavar, ya da aslan girəndə şivən qoparıb çığırışan, yerə yıxılanı təpikləyib döyən, bir banan payı almaq üçün əlinə keçəni qapıb qaçan, xoşlarına gələn birisini görəndə səs-küy salıb özlərini gözə soxan bu insana çox bənzəyən meymun populyasiyasından birisi adam görəndə də özünü yazıq görkəmə salıb ağlına gələn hər cür kömək istəyirsə, bura Cənubi Qafqazın meymunlar səltənəti Ermənistandır!

Meymunlar şıltaq olsalar da, sözə baxandırlar. Yəni bir banan, yaxud bir tikə yağlı çörəklə bu heyvanları ələ alıb, gün ərzində deyil, ömürlərinin sonuna qədər oynatmaq, onlardan zövq almaq olar. Bu keyfiyyətlərinə görə oxşamışlarının arxasına yeddi təpik vuran haylar dördayaqlı olmasalar da, bir insan davranışı ilə nəsildən-nəslə keçən sədaqətlərini öz "dressirovka sahiblərinə" həmişə göstərirlər. Bu gün Amerikadan Rusiyaya, Fransadan Hindistana qədər hər məsafədən gələn əmrləri dəqiq icra edən ermənilər bu sahədə rəqib tanımırlar.

Meymunlar digər heyvanlardan, məsələn, inəklərdən daha zəki olsalar da, cığaldırlar. İnəklər onlara göstərilmiş yeri ömürlərinin sonuna qədər tanıyıb, sahibi onları oradan çıxarmayana qədər bir addım da kənara ayaq basmazlar. İş meymunlara gəldikdə, meşədəki ağacda, budaqda, daş altında, daş üstündə, harada gəldi cəmi bircə gün oturan meymunları oradan qovsanız, çığırışıb elə şivən qoparsınlar ki, səsindən fillər də qorxsunlar. İndi gəlin görək, dünyada ermənilər kimi bir başqası varmı ki, yaşadıqları hər yeri "hayastan" adlandırıb, "yox" deyənə qarşı həyasızcasına hay-həşir salsınlar?

Meymunlar yaramazdırlar. Xüsusən dadlı təzə meşə meyvələrini yeyib qarınları doyandan sonra qonum-qonşu, böyük-kiçik bilmədən onları incidər, səs-küy salıb, guya, öz aləmlərində əylənərlər. Ermənilər də tam eynisi ilə, əllərinə bir az pul düşəndə, yaxud tanınmış birisi qapılarını açanda özlərini gözə soxmaq üçün böyük-kiçik bilmədən, başsız dövlət başçılarını belə saymadan meymunluq edib dünyanı əyləndirməyə çalışırlar. Elə keçən həftə İrəvandakı idman yarışında da Annanın yaxın dostu Aram adlı boynuyoğun keçəl bir erməni dığasının maniken qızın əlindəki Azərbaycan bayrağını qaparaq qaçması da heç bir turistin gözləmədiyi əsl şimpanze hərəkətidir. Maraqlıdır ki, erməni düşüncəsi ilə günün qəhrəmanı olmaq istəyən bu dördayaqlıya paxıllıq edən digər meymunlar da sonradan onun üz-gözünü yalayıb, ayaqlarını yerə vurudular.

Meymunlar qorxaq olsalar da, qisasçıdırlar. Bunu da deyim ki, bu, meymunlar səltənətinə səyahət etmək istəyən hər bir turist üçün bir az ürküdücü ola bilər. Belə ki, şıltaqlığına görə cəzalandırılmış meymun qorxudan üzdə səsini çıxarmasa da, ürəyində bəslədiyi kin və nifrət hissləri ilə sonradan ilk fürsət yaranan kimi insanı cırmaqlayıb dişləməyə, yaxud da sürü halında hücum edib qisas almağa çalışar. Ermənilər də bu saat otuz il onların nazı ilə oynamış Azərbaycandan yedikləri "dəmir yumruq"dan sonra fürsət qovalayıb qisas almaq həvəsi ilə yenidən alışıb-yanırlar. Beləcə, mənəviyyatdan uzaq olan erməni əxlaqının əsiri olan bu insanlar hələ də öz meymun vərdişlərindən əl çəkməyərək mədəni dünyanın azı 1500 il gerisinə düşməklə hər kəsin ürəyini bulandıran bir toplum həyatı sürürlər. Amma onu da deyim ki, milli park həvəskarları olan turistlər üçün bu toplumla da qorxmadan tanış olmağa dəyər. Sadəcə, özünüzlə bir səbət banan götürün ki, sizə dəyib-dolaşmasınlar.

**✍ Əli CABBAROV**

# Cəzaçəkmə müəssisələrində səyyar formada xidmətlər həyata keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində cəza-icra siyasətinin təşkili və etibarlı qorunması təmin edilir, cəzaçəkən şəxslərə hüquqi yardımların göstərilməsi diqqətdə saxlanılır.

Dünən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Daxili İşlər Nazirliyinin birgə əməkdaşlığı ilə cəzaçəkmə müəssisələrində səyyar formada xidmətlər həyata keçirilmişdir.

Səyyar xidmətin əməkdaşları şəxsiyyət vəsiqəsini itirən 1 məhkumun, eləcə də müddəti bitmiş 44 məhkumun şəxsiyyət vəsiqəsini dəyişdirərək yeni nəsil şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi məqsədilə müvafiq qeydiyyat işləri həyata keçirmişlər.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2023-cü ilin mart ayı ərzində ailə, qadın və uşaq hüquqlarının qorunması diqqətdə saxlanılmış, təlim, tədbir, monitorinqlər keçirilmiş və beynəlxalq günlər qeyd edilmişdir.*

# Ailə, qadın və uşaq hüquqlarının qorunması diqqətdə saxlanılmışdır



Ailələrin sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmışdır. Belə ki, Şərur rayonunun Tumaslı kəndində yaşayan aztəminatlı sağlamlıq imkanları məhdud olan Tağıyevlər ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun ərzaq payı verilmişdir.

Hesabat dövrü ərzində ailə, qadın və uşaq məsələləri ilə bağlı təbliğat işi aparılmışdır. Belə ki, gənclərin iştirakı ilə Naxçıvan Müəllimlər İnstitutunda "Gənc ailələrin sağlam olması gələcək nəsillərin sağlam olması deməkdir" mövzusunda tədbir keçirilmiş, ailə dəyərlərimiz, milli dəyərlərimiz, nikahdan öncə gənclərin tibbi müayinələrdən keçməsinin vacibliyi, nikah və nikah müqavilələri ilə bağlı çıxışlar olmuş, tədbir iştirakçılarına komitə tərəfindən hazırlanmış 80 ədəd maarifləndirici broşür paylanılmışdır. Tədbirdə 130 nəfər iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında tək qadınların və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilmiş, Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli və Şahbuz rayonu üzrə qadınlardan 4-ü dərzilik, 2-si bərbər-manikürçü, 2-si aşpazlıq peşə təhsilinə yiyələnməsi üçün 8 qadının məlumatları Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir.

"Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsində sərmayə kapitalı verilmiş 4 qadının yaşadığı ünvanda və təsərrüfat sahəsində sərmaye kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, heç bir nöqsan aşkarlanmamışdır.

Şahbuz rayonunun Keçili kəndində yaşayan aztəminatlı ailənin üzvü olan gənc qızlar və qadınlar üçün dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə istedadlı qadın Səkinə Qarayeva əyani vasitələrdən istifadə etməklə iştirakçılara dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin sirlərini öyrətmişdir. Təlimdə 22 qadın iştirak etmişdir.

2023-cü il 6 mart tarixdə Bakı şəhərində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə əlaqədar keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri iştirak etmişdir.

"Heydər Əliyevi İli"ndə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə komitə tərəfindən bir sıra tədbirlər keçirilmişdir. 603 qadının iştirakı ilə Heydər Əliyev Sarayında keçirilən "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda tədbirdən əvvəl muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən qadınlar tərəfindən əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsi önünə gül dəstələri qoyulmuş və Heydər Əliyev Muzeyi ziyarət edilmişdir. Tədbir Heydər Əliyev Sarayında davam etmiş, mövafiq mövzuda çıxışlar edilmiş, "Azərbaycan qadını – keçmişimiz və bu günümüz" mövzusunda film nümayiş olunmuş, komitə tərəfindən 2022-ci il ərzində muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən, müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən 35 qadına diplom, eləcə də tədbirdə iştirak edən qadınlara gül təqdim olunmuş, tədbir bədii hissə ilə davam etmişdir. Tədbirin sonunda Heydər Əliyev Sarayında təşkil edilmiş istedadlı qadınların rəsm və əl işlərindən, eləcə də qadınlar tərəfindən nəşr olunan kitablardan və ailə təsərrüfatı ilə məşğul olan qadınların istehsal etdiyi məhsullardan ibarət sərgiyə baxış olmuşdur. Təşkil edilən sərgi-satışda müxtəlif yerli və təbii daşlardan hazırlanan bəzək əşyaları, toxuma, tikmə, dekorativ iş, muncuqla, gipslə, dulza hazırlanan əl işləri, taxta üzərində oyma və xalça olmaqla, ümumilikdə, 94 müəllifin 2107 əl işi, 50 kiloqram qənnadı və un məmulatları, 84 növdə ailə təsərrüfatı məhsulları sərgilənmiş və satışı həyata keçirilmişdir. Sərgi-satışda 9 istedadlı qadının 240 manat dəyərində 25 əl işi, 4 ailə təsərrüfatçısı olan qadının 212 manat dəyərində istehsal etdikləri məhsullar satılmışdır. Həmçinin 8 Mart – Beynəlxalq Qadınlar Günü" ilə əlaqədar muxtar respublikada yaşayan gözdən əlil olan 20 qadınla və 1 çoxuşaqlı ana ilə görüş keçirilmiş, qadınlara hədiyyə və gül buketi, əlavə olaraq çoxuşaqlı ailəyə isə həm də ərzaq payı təqdim olunmuşdur. Bundan əlavə, Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Həvayət Qurbanova ilə görüş keçirilmiş, ona hədiyyələr və gül buketi təqdim olunmuşdur.

Naxçıvan Dövlət Universitetində Ümumi təbabət və klinik fənlər kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Gültəkin Əliyevanın 70 illik yubileyi qeyd edilmiş, tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri çıxış etmiş, yubilyara hədiyyə və gül buketi təqdim olunmuşdur.

Novruz bayramı ilə əlaqədar "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində təşkil edilmiş bayram tədbirində komitə tərəfindən bir sıra işlər görülmüşdür. Belə ki, "Ağac bəzəmə" müsabiqəsində istedadlı qadınların hazırladıqları əl işlərindən ibarət 6 ağac bəzədilmiş, müsabiqənin sonunda Novruz Bərəkət Ağacının ən yaxşı şəkildə bəzədilməsində fəal iştirakına görə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təşkilatçılar tərəfindən təşəkkürnamə ilə təltif olunmuşdur.

Novruz bayramı ilə əlaqədar keçirilən tədbirə 36 şəhid və 22 qazi övladı olmaqla, 58 uşaq dəvət edilmiş və tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli uşaqlarla görüşərək onlara hədiyyələr təqdim etmişdir.

Həmçinin tədbirdə istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil edilmişdir. Belə ki, sərgi-satışda müxtəlif yerli və təbii daşlardan hazırlanan bəzək əşyaları, toxuma, tikmə, dekorativ iş, muncuqla, gipslə, duzla hazırlanan əl işləri, taxta üzərində oyma və xalça olmaqla, ümumilikdə, 123 istedadlı qadının 3672 adda hazırlanmış əl işləri sərgilənmiş və satışı həyata keçirilmişdir. Sərgi-satışda 14 istedadlı qadının 4282.50 manat dəyərində 437 ədəd əl işi satılmışdır.

Hesabat dövrü ərzində özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə 23 istedadlı qadının, 4 ailə təsərrüfatçısı olan qadının 4734.50 manat dəyərində 462 əl işi və istehsal etdikləri məhsullarının satışı həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən Babək rayon Naxışnərgiz kənd tam orta məktəbində monitorinq keçirilmiş və uşaq hüquqlarının pozuntusu hallarına rast gəlinməmiş, infrastrukturla bağlı nöqsanlar aşkarlanaraq aktlaşdırılmışdır. Nöqsanların aradan qaldırılması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə və Babək Rayon İcra Hakimiyyətinə aktın surəti göndərilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı 8 sağlamlıq imkanları məhdud uşağın evində monitorinq keçirilmişdir.

10 mart – Milli Teatr Günü ilə əlaqədar Məmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında xalq nağılı əsasında hazırlanmış "Keçinin qisası" tamaşasına xüsusi qayğıya ehtiyacı olan ailələrin, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqlar, həmçinin şəhid övladları olmaqla, 120 nəfər uşaq cəlb olunmuşdur.

Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Tədbirlər Planına əsasən cari il ərzində "Liderliyə gedən yol" mövzusunda millət vəkillərinin uşaqlarla görüşü keçirilir. Bu məqsədlə 2023-cü il 13 mart tarixdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Babək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Babək şəhəri 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsində Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyevanın uşaqlarla görüşü keçirilmişdir. Tədbirdə müvafiq mövzuda çıxışlar olmuş, sonda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva "Liderliyə gedən yol" mövzusunda uşaqların şəxsi karyera və inkişafla bağlı fikir və təkliflərini dinləmişdir. Diskussiya şəklində keçirilən tədbirdə uşaqların gələcək planları, onları maraqlandıran digər məsələlərə dair sualları millət vəkili tərəfindən ətraflı cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Buraxılış imtahanlarında muxtar respublika üzrə ən yüksək nəticə



Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi 12 mart 2023-cü il tarixdə XI siniflər üzrə keçirilən buraxılış imtahanının nəticələrini elan edib.

Şərur rayonunun Kürçülü kənd tam orta məktəbinin şagirdi Mikayıl Cəfərli buraxılış imtahanında Azərbaycan dili fənnindən 97, İngilis dili və Riyaziyyat fənlərindən isə 100 bal olmaqla, ümumilikdə, 297 bal toplayaraq muxtar respublika məktəbliləri arasında ən yüksək nəticəni göstərmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# I Uşaq İncəsənət Festivalında muxtar respublikadan 489 nəfər iştirak edəcək

Məlum olduğu kimi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mədəniyyət, Elm və Təhsil nazirlikləri və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ölkəmizdə I Uşaq İncəsənət Festivalı keçirilir. Festivalın ilk mərhələsinə aprelin 17-dən start verilib.



Festivalda iştirak fərdi və kollektiv formada həyata keçirilir. Muxtar respublika üzrə, ümumilikdə, 489 nəfər festivalda iştirak üçün qeydiyyatdan keçib. Onlardan 292 nəfər fərdi, 197 nəfər isə kollektiv iştirakçıdır. Ümumilikdə, 21 nominasiya üzrə keçirilən festivalda muxtar respublikadan olan iştirakçılar 19 nominasiya üzrə təmsil olunacaq. Festivalın ilk mərhələsində Naxçıvan şəhərindən 115 nəfər fərdi və 14 kollektiv, Babək rayonundan 25 nəfər fərdi, Culfa rayonundan 21 nəfər fərdi, Kəngərli rayonundan 19 nəfər fərdi və 3 kollektiv, Ordubad rayonundan 26 nəfər fərdi və 2 kollektiv, Sədərək rayonundan 18 nəfər fərdi və 1 kollektiv, Şahbuz rayonundan 42 nəfər fərdi və 1 kollektiv, Şərur rayonundan 26 nəfər fərdi və 1 kollektiv iştirak edəcək.

Qeyd edək ki, festivalın keçirilməsində əsas məqsəd Ümummilli Lider Heydər Əliyevin mədəniyyətə və gənclərə qayğısını rəhbər tutaraq milli mədəniyyətin və incəsənətin təbliği, uşaqların milli vətənpərvərlik, mədəniyyətə, incəsənətə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsi, onlarda mədəni həyat tərzinin formalaşdırılmasının təşviq edilməsidir.

Üç mərhələdən ibarət festivalda 6-17 yaş arası şəxslər peşəkar və həvəskar olmaqla, üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edə bilərlər.

Festival Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan təqdimat və rəqəmsal incəsənət nümunələri də (piano ifaçılığı, klassik simli alətlər ifaçılığı, klassik nəfəs alətləri ifaçılığı, Azərbaycan xalq çalğı alətləri ifaçılığı, akademik vokal, estrada oxuma, xanəndəlik sənəti, aşıq sənəti, xor, caz ifaçılığı, solo milli rəqs, milli rəqs ansamblı, solo müasir rəqs, müasir rəqs ansamblı, aktyorluq, bədii qiraət, hekayəçilik (stand-up), dekorativ-tətbiqi sənət, rəssamlıq, heykəltəraşlıq) daxil olmaqla, ümumilikdə, 21 nominasiya üzrə keçirilir.

Festivalda hər iştirakçı fərdi olaraq yalnız bir nominasiya üzrə iştirak edə bilər. Kollektiv olaraq festivala qatılanların isə fərdi şəkildə əlavə bir nominasiyada da iştirak etməsi mümkündür.

Festivalın I mərhələsi 2023-cü ilin aprel-iyun ayında keçirilir. I mərhələdə qalib olmuş iştirakçılar festivalın II mərhələsində iştirak etmək hüququ qazanırlar. Festivalın II mərhələsi 2023-cü ilin iyun-avqust ayında keçiriləcək. Bu mərhələdə qalib olmuş iştirakçılar final mərhələsində iştirak etmək hüququ qazanırlar. Festivalın final mərhələsi cari ilin sentyabr ayında Bakı şəhərində keçiriləcək. Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin "2244" qaynar xətti yaradılıb




Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin regionda fəaliyyət göstərən nəzarət subyektləri ilə bağlı şikayət və sorğularının cavablandırılması imkanlarının genişləndirilməsi və operativliyinin artırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin *"2244"* qaynar xətti istifadəyə verilmişdir.

Həmçinin İdarə tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən kredit və sığorta təşkilatlarının inzibati binalarında (filial, şöbə) *"2244"* qaynar xətti barədə məlumat lövhəsinin yerləşdirilməsi üçün göstəriş verilmişdir. Buna əsasən hüquqi və fiziki şəxslər kredit və sığorta təşkilatları tərəfindən qanunvericiliyin tələblərinin pozulduğu hallarla, həmçinin Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin səlahiyyətlərinə aid məsələlər barədə məlumat və sorğu xarakterli müraciətlərlə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin *"2244"* qaynar xəttinə zəng edə bilərlər.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin *"2244"* qaynar xətti iş günləri hesab edilən bazar ertəsi-cümə günləri saat 09[00]-dan 18[00]-dək zəngləri qəbul edir. Daxil olan zənglərin yerində cavablandırılması mümkündürsə, vətəndaşların şifahi müraciətləri ilə əlaqədar onlara müvafiq izahat verilərək müraciətləri cavablandırılır. Yazılı müraciətlər isə müvafiq struktur bölmələrə yönəldilir.

**Xəbərlər şöbəsi**

**İtmişdir**

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 82, mənzil 11-də yaşayan Kərimov Teymur Tofiq oğlunun adına olan 6242 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Ələkbərov Ələsgər Hüseynalı oğlunun adına verilmiş JN-991[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhər sakini Sadiqov Ramil Eldar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 286